KРКА, д. д., Ново место

**SAXTAKARLIĞIN QARŞISININ ALINMASI, AŞKAR EDİLMƏSİ VƏ ARAŞDIRILMASI ÜZRƏ ƏSASNAMƏ**

***Hazırlandı:***

| *Struktur bölmə* | *Ad və soyad* | *İmza və tarix* |
|---|---|---|
| Maaliyə şöbəsi | | |
| | Maryeta Pirts | |
| Hüquq xidməti | Barbka Rus Krumberqer | |

***Təsdiq edildi:***

| *Struktur bölmə* | *Ad və soyad* | *İmza və tarix* |
|---|---|---|
| Fəaliyyətin müəyyən olunmuş tələblərə müvafiqliyinin təmin edilməsi üzrə səlahiyyətli şəxs | Qreqor Redek | |
| Kadrlar şöbəsi | Dori Silvia Qorents | |
| İdarə Heyətinin səlahiyyətli üzvü | David Bratok | |

***Təsdiq edildi*** ***Tarix***

Şirkətin İdarə Heyəti

"KRKA d.d. Novo Mesto" İdarə Heyətinin icalasında 15.07.2020 tarixli , ... saylı qərarı ilə təsdiq edilmişdir.

**Qüvvəyə minmə tarixi : 1. 8. 2020**

| *Əvvəlki nəşr* | |
|---|---|
| *Nəşr* | *Dəyişikliyin izahı* |
| İdarə Heyətinin № …saylı qərarı | İki ildən bir müntəzəm yoxlama aparılır. Məzmun müvafiqdir, aydınlıq üçün bəzi redaksiya dəyişiklikləri daxil edilmişdir və əlaqələr yenidir. Dəyişikliklərlə bağlı əməkdaşların əlavə tədrisi tələb olunmur, sənəd əvvəlki variant kimi yayılır. |
| İdarə heyətinin № 72/2018 saylı qərarı | "Qanunazidd davarnış və korporativ saxtakarlığın qarşısının alınması, aşkar edilməsi və araşdırılması haqqa Əsasnamə" adlı yeni sənəd 2015-ci il tarixli"Saxtakarlığın qarşısıın alınması, aşkar edilməsi və araşdırılması haqqda Əsasnamə" və 2015-ci il tarixli "Saxtakarlığın qarşısının alınması, aşkar edilməsi və araşdırılması siyasəti"adlı sənədləri əvəz edir. |
| Idarə Heyətinin № 259/2015-ci | 7.12.2015-ci il tarixli Saxtakarlığın qarşısının alınması, aşkar edilməsi və araşdırılması haqqda Əsasnamə |

| | |
|---|---|
| il tarixli qərarı | 7.12.2015-ci il tarixli saxtakarlığın qarşısının alınması, aşkar edilməsi və araşdırılması haqqda siyasət |

**MƏZMUN**


I Məqsədlər ........ 3

II Tətbiqin diapazon və sahəsi ........ 3

III Qanunazidd davranış və saxtakarlığın qadağan edilməsi ........ 4

IV Qanunazidd davranış və saxtakarlıqla mübarizə sistemi ........ 4

V Qanunazidd davranış və saxtakarlıq ilə mübarizə ilə bağlı prosedur və tədbirlər ........ 5

VI Qanunazidd davranış və saxtakarlıq haqqda şübhə ilə bağlı müraciətlərin edilməsi ........ 6

VII Müraciətlərin nəzərdən keçirilmə prosedurları ........ 6

VIII Keçid və yekun müddəalar ........ 7

## I Məqsədlər

Saxtakarlığın qarşısının alınması, aşkar edilməsi və araşdırılması haqqda Əsasnamə (bundan sonra Əsasnamə adlanacaq) saxtakarlıqla mübarizədə əsas məqsədlər, prinsiplər və sistemi müəyyən edir. Əsasnamə eyni zamanda, qanunazidd davranış və saxtakarlığın qarşısının alınması, aşkar edilməsi və araşdırılması ilə bağlı KRKA əməkdaşlarının vəzifə və öhdəliklərini müəyyən edir.

Əsasnamə KRKA-da etik davaranış, dürüst işgüzar təcrübə və davranış normalarının prinsip və qaydalarını müəyyən edən **KRKA şirkətinin** qüvvədə olan qayda, tövsiyə və **davranış Kodeksinə** əsaslanır.

Qanunazidd davaranış və saxtakarlıqla mübarizə sahəsində KRKA şirkətinin məqsədləri aşağıdakılardır:

- saxtakarlığa qarşı dözümsüzlük prinsipinə riaət etməklə onun səviyyəsinin aşağı salınması;
- saxtakarlığın əlamətləri və onun idarə edilməsi yolları haqqda əməkdaşların məlumatlılığının artırılması;
- saxtakarlığın aşkar edilməsi zamanı və onun haqqda xəbər verilməsi ilə bağlı əməkdaşların məsuliyyəti barədə onlara informasiya verilməsi (məlumatlandırılma);
- saxtakarlığın qarşısının alınması və aşkar edilməsi ilə bağlı daxili nəzarət sistemlərinin daimi təkmilləşdirilməsi və idarə edilməsi;
- saxtakarlıq hallarının qarşısının alınması, aşkar edilməsi və araşdırılmasına imkan yaradan müvafiq resurslarla təmin olunması;
- müvafiq norma, rəhbər göstəriş və kodekslərə tam riayət etmək;
- saxtakarlıqla bağlı şübhə haqqda müraciətə vaxtinda və müvafiq şəkildə diqqət göstərilməsi;
- qanunazidd davranış və saxtakarlıq şübhəsi ilə bağlı müraciət edən şəxslərin anonimliyinin təmin edilməsi;
- KRKA şirkətinin nüfuz və mülkiyyətinin müdafiə olunması.

## II Tətbiqin diapazon və sahəsi

Hazırki Əsasnamə KRKA və bütün digər hüquqi və fiziki şəxslərə münasibətdə (bundan sonra üçüncü şəxslər adlanacaq) bu sənədə müvafiq olaraq fəliyyət göstərməli olan bütün KRKA əməkdaşlarına sirayət edəcək.

Hazırki Əsasnaməyə müvafiq olaraq, qanunazidd davranış və saxtakarlıqla bağlı şübhə haqqda bütün KRKA əməkdaşları və üçüncü tərəflər müraciət edə bilərlər.

Saxtakarlıq və korrpupsiya ilə mübarizə sahəsində qüvvədə olan normalara müvafiq olaraq rəhbər göstəriş, beynəlxalq davranış normaları və KRKA-nın daxili aktları KRKA əməkdaşlarının öz fəaliyyətləri və şirkətin işgüzar proseslərində hər zaman əməl etməli olduqları əsas prinsip və qaydalar hazırki Əsasnamədə müəyyən edilmişdir.

Daha ciddi dövlət tələbləri mövcud olduğu zaman onları mütləq nəzərə almaqla, KRKA-nın törəmə şirkətləri hazırki Əsasnamənin normalarına əməl edilməsini təmin etməlidir.

Bütün əməkdaşlar elektron tədris və ya başqa müvafiq yolla hazırki Əsasnamənin məzmunu ilə tanış olmalıdırlar. Eyni yolla əməkdaşlar Əsasnamədə baş verən dəyişikliklər haqqda məlumatlandırılırlar. Yeni əməkdaşlar işə qəbul olunarkən, Əsasnamənin məzmunu ilə tanış olurlar.

## III Qanunazidd davranış və saxtakarlığın qadağan edilməsi

Qüvvədə olan qaydalara müvafiq olaraq, bütün növ qanunazidd davranış və saxtakarlıq qadağan edilir. Belə davranışa ilk növbədə aşaıdakılar aid edilir:

- **Korrupsiya** – özü və ya üçüncü şəxs üçün mənfəət qazanmaq məqsədilə vəzifə səlahiyyətindən sui-istifadə etmək. Mənfəət müvafiq qanun pozuntusu üçün vəd edildiyi və ya buna təşviq edilməsi üçün verildiyi halda və ya müvafiq qanun pozuntusuna görə qəbul edildiyi təqdirdə, davranış korrupsiya təyinatlı hesab edilir.

- **Korporativ saxtakarlıq (və ya mətndəki kimi "saxtakarlıq")** – KRKA şirkəti və ya 3-ü tərəfin ziyanına qeyri-qanuni və ya əsaslandırılmamış mənfəətin qazanılması ilə səciyyələnən istənilən qeyri-etik və/və ya qeyri-qanuni fəaliyyətdir. Saxtakarlığa əsasən, aldatma, vəziyyətin gizlədilməsi və ya etibardan sui-istifadə, saxta maaliyə hesabatları və sairə aiddir. Ayrı-ayrı fərdlər və ya şirkətlər KRKA şirkəti və ya üçüncü tərəfin ziyanına, xüsusilə pul vəsaiti və ya əmlak kimi maddi mənfəət əldə etmək məqsədilə və ya öz maraqlarının qeyri-qanuni yolla həyata keçirilməsi üçün saxtakarlıq törədirlər. Aldadıcı hərəkətlər vasitəsilə ayrı-ayrı fərdlər və ya şirkətlər ödənişdən və ya itkilərə görə kompensasiya xidmətlərindən yayınmağa çalışır və qeyri-qanuni fəaliyyət vasitəsilə özünün şəxsi və ya kommersiya mənfəətini qorumağa çalışırlar.

- **Rüşvətxorluq** – rüşvətin tələb edilməsi, alınması, vəd edilməsi, təklif olunması, verilməsi və ya onun alınmasına vasitəçilik etmək, yəni qeyri-qanuni və qeyri-etik hərəkət və ya etibardan sui-istifadə üçün şirnikləndirici mənfəətdir.

- **Maraqların toqquşması** – korrupsiya və ya başqa qeyri-qanuni hərkətlərə səbəb ola bilən davranışa imkan verən və ya davranışa təhrik edən vəziyyət. Maraqların toqquşması insanın öhdəlik və öz vəzifə tələbləri ilə şəxsi maraqlarının toqquşması ilə xarakterizə olunur.

## IV Qanunazidd davranış və saxtakarlıq ilə mübarizə sistemi

Qanunazidd davranış və saxtakarlıq ilə mübarizə ilə bağlı nəzarət tədbirləri kompleksi KRKA təşkilati strukturunun bütün səviyyələrində həyata keçirilir və onların məqsədləri biznes prosedurların keyfiyyət, şəffaflıq, təhlükəsizlik və effektivliyinin təmin edilməsidir. Bu nəzarət tədbirləri kompleksinin əsası xarici və daxili qaydalar, yaxşı işgüzar təcrübələr, kodekslər, sənədlərin idarə olunması sistemləri, əməkdaşların səlahiyyət və məsuliyyəti və sairədən ibarətdir.Nəzarət tədbirləri eyni zamanda, saxtakarlığın qarşısının alınması, əməkdaşlar arasında məlumatlılıq səviyyəsinin artırılması və qanunazidd davranış və saxtakarlığın müəyyən olunması, aşkar edilməsi və araşdırılması üçün saxtakarlıq haqqda məlumatların verilməsi ilə bağlı onların öhdəlikləri üçün nəzərdə tutulmuşdur. .

KRKA şirkəti və keyfiyyət üzrə Rəhbər Göstərişlərin inkişaf strategiyasında müəyyən edilmiş məqsədlərə nail olmağı təhlükə altında qoya bilən faktorların vaxtında müəyyən edilməsi və idarə olunması üçün KRKA-da əsas strateji və əməliyyat risklərinin idarə olunmasını təmin edən nəzarət mühiti yaradılmışdır. Konkret nəzarət tədbirləri qanunazidd davranış və saxtakarlıqla mübarizə sisteminə də şamil edilmişdir.

**KRKA şirkıtinin risk reyestri** – potensial risklərin hərtərəfli görüntüsü olub, fəaliyyətin tamlığının möhkəmləndirilməsi üzrə Planla tamamlanır. KRKA şirkətində risklərin idarə olunması bütün biznes prosedurlarına daxil edilmişdir. Fasiləsiz biznes prosesləri və risklərin azaldılması ilə bağlı nəzarət tədbirləri və öhdəliklərini müəyyən edən böyük miqdarda standart əməliyyat prosedurları və daxili təlimatlardan istifadə olunur.

Qanunazidd davranış və saxtakarlığın qarşısının alınması, aşkar edilməsi və araşdırılmasına cavabdeh olan səlahiyyətli şəxslər rəhbərlik səviyyəsinə müvafiq olaraq aşağıda qeyd edilmişdir.

«KRKA,d.d., Novo Mesto» KRKA şirkətinin AC **İdarə Heyəti** şirkət mülkiyyəitinin dəyəri və reputasiyasının qorunub saxlanmasına kömək edən müvafiq nəzarət mühitinin yaradılmasını təmin edir. İdarə Heyəti qanunazidd davranış və saxtakarlığın qarşısının alınması, aşkar edilməsi və araşdrılmasına da cavabdeh olan, *fəaliyyətin müəyyən olunmuş tələblərə müvafiqliyinin təmin edilməsi üzrə səlahiyyətli şəxs* təyin edir.

**Fəaliyyətin müəyyən olunmuş tələblərə müvafiqliyinin təmin edilməsi üzrə səlahiyyətli şəxs** aşağıdakı sahələrə görə məsuliyyət daşıyır:

- qanunazidd davranış və saxtakarlıq riskinin dyərləndirilməsi;
- qanunazidd davranış və saxtakarlığın qarşısının alınması, aşkar olunması və araşdırılması üçün daxili nəzarət sistemləri üzrə təkliflərin verilməsi;
- qanunazidd davranış və saxtakarlıqla bağlı şübhə haqqda hər bir müraciətin müvaviq tərzdə araşdırılması və müraciət edən şəxsin qorunması;
- hazırki Əsasnamənin məzmunu ilə əməkdaşların tanış edilməsi, onun tədrisi və məlumatlılığın artırılması;
- qanunazidd davranış və saxtakarlıqla bağlı şübhələrin yoxlanılması haqqda müraciət və sənədləşmələrin qeydiyyatının aparılması;
- qanunazidd hərəkət və saxtakarlığın qarşısının alınması, müəyyən edilməsi və aşkarlanması prosedurları haqqda idarə heyətinə hesabatların təqdim edilməsi;
- daxili mütəxəssislər və hüquq-mühafizə orqanları ilə əməkdalıq.

**Departament, şöbə və müstəqil xidmət rəhbərləri** aşağıdakı məsələlərlə bağlı məsuliyyət daşıyırlar**:**

- məsul olduqları sahədəki saxtakarlıq riskinin dəyərləndirilməsi;
- qanunazidd davranış və saxtakarlıqla mübarizədə daxili nəzarətlə bağlı effektiv sistemin tətbiq edilməsi;
- qanunazidd davranış və saxtakarlığa qarşı dözümsüzlüyə riayət edilməsi;
- qanunazidd davranış və saxtakarlığın struktur yarımbölmələrlə əlaqədar olduğuna şübhə yarandığı təqdirdə, lazımi tədbirlərin görülməsi zamanı fəaliyyətin müyyən olunmuş tələblərə müvafiqliyinin təmin edilməsi üzrə səlahiyyətli şəxs ilə əməkdaşlıq.

**Hər bir əməkdaş** aşağıdakı işlərə görə məsuldur:

- KRKA şirkətinin davraniş Kodeksi və bütün müvafiq qaydalara uyğun olan dürüst və qanunauyğun davranış;
- qanunazidd davranış və saxtakarlığa işarə edə bilən mümkün fəaliyyət və ya maaliyə əməliyyatları haqqda məlumat verilməsi;
- qanunazidd davranış və saxtakarlıq əlamətləri haqqda dəlillərin saxlanması və qorunması;
- saxtakarlığa qarşı dözümsüzlük nümayiş etdirmək.

## V Qanunazidd davranış və saxtakarlıqla mübarizə üzrə prosedur və tədbirlər

Qanunazidd davranış və saxtakarlıqla mübarizənin prosedur və tədbirləri onların qarşısının alınması, aşkar edilməsi və araşdırılmasından ibarətdir. Əsas diqqət saxtakarlığın qarşısının alınmasına yönəldilir. Böyük saxtakarlıqlarla bağlı şübhələrin araşdırılması təcrübəli mütəxəssislər və müvafiq orqanların səlahiyyətində olduğundan, saxtakarlığın aşkar edilməsi tədbirləri də əhəmiyyətlidir.

Saxtakarlıqla mübarizə sahəsində müntəzəm tədbirlər saxtakarlıq riskinin azaldılması məqsədilə, məhz daxili akt və təlimatların qəbulu, onlara dəyişikliklər və əlavələr etməklə, daxili nəzarət sisteminin təkmilləşdirilməsidir.

KRKA maraqların toqquşmasının meydana gəlməsi riskini azaldan və onların qarşısını alan, bununla KRKA şirkətinə ziyan vurulmasının da qabağını alan standart əməliyyat psosedur və əsasnamələri vasitəsilə maraqlarım toqquşmasının idarə edilməsi sitemini təmin edir.

KRKA səhiyyə sahəsi ilə bütün münasibətlərin qüvvədə olan qanun və rəhbər göstərişlərə müvafiq olaraq həyata keçirilməsi ilə yanaşı, qanunazidd davranışların baş verməsinin də azaldılmasına çalışır. Tibbi nümayəndələr qanunlara uyğun olaraq fəaliyyət göstərir və məhsulun promosiyası üzrə müvafiq tədris keçirlər.

Qanunazidd davranış və saxtakarlıqla mübarizə ilə effektiv mübarizə üçün əməkdaşların tədris və hazırlığı ən mühüm rol oynayır. Tədris proqramları, korporativ KİV elanları və lövhələrdəki elanlar vasitəsilə KRKA müvafiq məlumatlılıq səviyyəsini təmin edir və bunun əsasında əməkdaşlar qanunazidd davranış və saxtakarlığın və ya buna bənzər ayri-ayrı hərəkətlərin əlamətlərini aşkar etməyi bacarırlar.

## VI Qanunazidd davranış və saxtakarlıq haqqda şübhə ilə bağlı müraciətlərin edilməsi

Qanunazidd davranış və saxtakarlıq haqqda şübhə ilə bağlı bütün əməkdaş və üçüncü şəxslər müraciət edə bilərlər.

KRKA əməkaşı qanunazidd və saxtakarlıqla bağlı şübhəyə yol açan davranış gördüyü təqdirdə, rəhbərliyi bu haqqda məlumatlandırır. İşin xarakteri və ya şərait buna imkan vermədiyi zaman, Hüquqi xidmət rəhbərliyi və ya fəaliyyətin müəyyən edilmiş tələblərə uyğunluğunun təmin edilməsi üzrə səlahiyyətli şəxsə xəbər verilir. Qanunazidd davranış və saxtakarlıq haqqda şübhə ilə bağlı müraciət anonim də ola bilər. Qanunazidd davranış və saxtakarlıq haqqda şübhə ilə bağlı müraciət bu elektron ünvana da göndərilə bilər: compliance.officer@krka.biz.

Müraciət edən şəxs anonimliyi qorumaq istəmədiyi halda, o, qanunazidd davranış və saxtakarlıq haqqda şübhə ilə bağlı telefonla da aşağıdakı nömrələrə müraciət edə bilər:

- fəaliyyətin müəyyən olunmuş tələblərə uyğunluğunun təmin edilməsi üzrə səlahiyyətli şəxs – **(07) 331 2600**,
- Hüquq xidmətinin rəhbəri – **(07) 331 95 95**.

KRKA müraciət edən haqqda məlumatların məxfiliyinin saxlanmasını, bu məlumatlarla işləyən zaman ehtiyyatlı olmağı və hər hansı cavab tədbirləri ilə bağlı müvafiq müdafiəni təmin etməyi öhdəsinə götürür.

## VII Müraciətlərin nəzərdən keçirilmə proseduru

Konkret müraciətlərin nəzərdən keçirilməsi zamanı fəaliyyətin müəyyən edilmiş tələblərə müvafiqliyinin təmin edilməsi üzrə səlahiyyətli şəxs Hüquq xidməti ilə əməkdaşlıq edərək, qanunazidd davranış və saxtakarlıqla bağlı şübhənin araşdırılması üçün zərurət yarandığı təqdirdə, özündən başqa müxtəlif struktur bölmələrdən tələb olunan spesifik biliklərə mailk daha 2-4 nəfərin də daxil edildiyi xüsusi qrup yaradır. Təyin edilmiş qrup qanunazidd davranış və saxtakarlıqla bağlı şübhə haqqda hər bir müraciəti nəzərdən keçirir, onun meydana gəlmə səbəblərini araşdırır, tənzimləyici və profilaktik tədbirlər təklif edir. Saxtakarlıq bu işlə bağlı təcrübəsi olan əməkdaşlar tərəfindən, zərurət yarandıqda isə dəvət edilən mütəxəssislər və ya hüquq-mühafizə orqanı nümayəndələri ilə araşdırılır.

Qanunazidd davranış və saxtakarlıq haqqda şübhə ilə bağlı müraciət edən şəxs dürüst olduğu və zərər vermək niyyəti güdmədiyi təqdirdə, o, cavab tədbirlərindən müdaifə edilir. Ona xüsusi dəstək göstərilir və müraciətlə bağlı qərar haqqda ona məlumat verilə bilər. Müraciət edən şəxslə bağlı məlumatların məxfiliyinə riayət olunur. İstənilən cavab tədbirləri KRKA şirkətinin davranış Kodeksinin xüsusi ciddi pozuntusu hesab edilir.

Fəaliyyətin müəyyən olunmuş tələblərə müvafiq olmasının təmin edilməsi üzrə səlahiyyətli şəxs daxil olan müraciətlər və onlarla bağlı görülmüş tədbir və işlərin qeydiyyatını aparır.

Yekun nəticələrdən asılı olaraq fəaliyyətin müəyyən olunmuş tələblərə müvafiq olmasının təmin edilməsi üzrə səlahiyyətli şəxs məsul bölmə və ya zərurət yarandıqda, İdarə Heyyətinə aşağıdakı qərarlardan birini qəbul etməyi təklif edir:

- qanunazidd davranış və saxtakarlıqla bağlı şübhə əsassız olduğundan onun araşdırılmasının davam etdirilməsi tələb edilmir;
- qanunazidd davranış və saxtakarlıqla bağlı şübhə əsaslı olduğundan sanksiya kimi daxili tədbirlər görmək və nəzarət prosedurunu yaxşılaşdırmaq lazımdır;
- qanunazidd davranış və saxtakarlıqla bağlı şübhə əsaslı olduğundan, bu işdə təcrübəsi olan əməkdaşlar, dəvət edilmiş mütəxəssislər və ya hüquq-mühafizə orqanları tərəfindən işin araşdırılmasini davam etdirmək lazımdır.

Saxtakarlıqla bağlı aşkar edilmiş halların araşdırılması müvafiq ölkənin qüvvədə olan qanunvericiliyinə uyğun olaraq aparılır.

## VIII Keçid və yekun əsasnamələr

Əsasnamə şirkətin idarə heyyəti tərəfindən təsdiq edilir. O, həm daxili (Krkanet), həm də KRKA-nın ümumi saytında dərc edilmişdir.

Hazırki Əsasnamənin qüvvəyə minməsi ilə 7.12.2015-ci il tarixli saxtakarlığın qarşısının alınması, aşkar edilməsi və araşdırılması haqqda Əsasnamə və 7.12.2015-ci il tarixli saxtakarlığın qarşısının alınması, aşkar edilməsi və araşdırılması Siyasəti adlı sənədlər qüvvəsini itirirlər.

Hazırki Əsasnamə yenidən nəzərdən keçirilə və zərurət yarandıqda, 2 ildən bir əlavələr oluna bilər.

Yoxlanılıb 15 İyul 2020